# Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü islahatlar sosial-iqtisadi inkişafın davamlılığını etibarlı təmin edir

## Şahin MUSTAFAYEV: "Ölkə rəhbərinin müəyyənləşdirdiyi yeni inkişaf kursu iqtisadiyyatın modernləşməsinin effektivliyini artırır, uğurlu real nəticələr verir"

Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı tərəfindən verilmiş tapşırıqların icrası ilə bağlı İqtisadiyyat Nazirliyinin struktur bölmələrinin və tabeliyindəki qurumların rəhbərlərinin iştirakı ilə kollegiya iclası keçirilmişdir.



### Qeyri-neft ixracı 27 faiz artmışdır

İqtisadiyyat naziri Şahin Mustafayev vurğulamışdır ki, Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Respublikasının Prezidenti 2017-ci ilin iqtisadi inkişaf ili olduğunu, dünyada təhlükəli meyillərin gücləndiyi bir dövrdə Azərbaycanın uğurla inkişaf etdiyini, sabitliyin möhkəmləndiyini bildirmişdir. Nazir demişdir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü islahatlar sosial-iqtisadi inkişafın davamlılığını etibarlı təmin edir. Həmçinin ölkə rəhbərinin müəyyənləşdirdiyi yeni inkişaf kursu iqtisadiyyatın modernləşməsinin effektivliyini artırır, uğurlu real nəticələr verir.

2017-ci ilin birinci yarısında qeyri-neft sənayesində məhsul istehsalı 4,4 faiz, kənd təsərrüfatı 2,2 faiz, ümumilikdə ixrac 36 faiz, o cümlədən qeyri-neft ixracı 27 faiz artmış, müsbət saldo 1,9 milyard ABŞ dolları təşkil etmişdir. Bu dövrdə ölkə iqtisadiyyatına 5 milyard ABŞ dolları həcmində investisiya yatırılmış, valyuta ehtiyatlarımız artaraq 40,6 milyard ABŞ dolları təşkil etmişdir.

Nazir Azərbaycan Prezidentinin sosial-iqtisadi sahədə görülmüş işləri müsbət qiymətləndirdiyini, qarşıdakı dövr üçün mühüm vəzifələr müəyyənləşdirdiyini diqqətə çatdırmışdır. Belə ki, dövlət başçısı maliyyə və iqtisadi sabitliyin davamlılığının təmin edilməsi, rayonlarda sənaye zonalarının yaradılması, Dövlət İnvestisiya Proqramının tam icra olunması, daha çox sərmayələrin cəlb edilməsi, rayonlara yönəldilən özəl sərmayələr barədə məlumatların dövlət başçısına təqdim edilməsi, süni qiymət artımına yol verilməməsi, taxılçılıqda məhsuldarlığın artırılması, aşağı məhsuldarlığı olan rayonlar üzrə təhlillərin aparılması, pambıq, kartof, şəkər çuğunduru, soya, çəltik, çay, fındıq istehsalının artırılması, baramaçılığın, tütünçülüyün, zeytunçuluğun, heyvandarlığın inkişafı, süd və ət məhsulları ilə özünütəminat səviyyəsinin yüksəldilməsi, ixracın coğrafiyasının genişləndirilməsi, Azərbaycan məhsullarının Avropa İttifaqı ölkələrinin bazarlarına çıxarılması, ixracı azalan məhsullar üzrə araşdırmaların aparılması və s. tapşırıqlar vermişdir.

### Sənaye parkları yeni inkişaf kursunun lokomotivinə çevrilir

Kollegiya iclasında dövlət başçısının tapşırıqlarının icrası istiqamətində İqtisadiyyat Nazirliyi tərəfindən görülən işlər, həyata keçirilməsi nəzərdə tutulan tədbirlər barədə məruzələr dinlənilmişdir.

Məlumat verilmişdir ki, bu ilin birinci yarımilliyində tikinti materialları, kağız və karton, tekstil, rezin və plastmas məmulatlarının, qida məhsullarının istehsalı və s. sahələrdə müasir texnologiyalara əsaslanan, rəqabətqabiliyyətli və ixracyönümlü onlarla sənaye müəssisəsi fəaliyyətə başlamışdır. Dövlət başçısının uğurlu sənayeləşmə siyasətinə uyğun olaraq, innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənayenin inkişafına yeni təkan vermək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə sənaye parkları və sənaye zonalarının yaradılması davam etdirilir.

Artıq ölkəmizdə Sumqayıt Kimya Sənaye, Balaxanı, Qaradağ, Mingəçevir və Pirallahı sənaye parkları yaradılmışdır. Sumqayıt Kimya Sənaye Parkında ümumi investisiyalarının həcmi 1,2 milyard dollar təşkil edən 10 müəssisəyə rezident statusu verilmişdir. 2013-cü ildə fəaliyyətə başlamış və 760 nəfərdən çox işçinin çalışdığı "Azertexnolayn" zavodunda təkcə bu ilin 6 ayı ərzində 65 milyon manatlıq məhsul istehsal olunmuşdur. Sənaye parkında bu il daha 5 müəssisə, 2018-ci ildə isə 3 müəssisə fəaliyyətə başlayacaqdır. Bu müəssisələrdə 900-ə yaxın yeni iş yerinin açılması nəzərdə tutulur.

"Yaşıl iqtisadiyyat"ın, təkrar emal sənayesinin inkişafında əhəmiyyətli rola malik olan Balaxanı Sənaye Parkında 23 milyon manat investisiya yatırmaqla tullantıların təkrar emalı üzrə 5 müəssisə fəaliyyətə başlamağa hazırdır və bu müəssisələrdə 400-ə yaxın yeni iş yeri açılmışdır.

### Sualtı tikinti gəmisi istehsal olunur

Gəmiqayırma sahəsində ixtisaslaşmış Qaradağ Sənaye Parkında Bakı Gəmiqayırma Zavodu fəaliyyət göstərir və zavodda yüksək yükgötürmə qabiliyyətinə malik tanker, dəniz təchizat gəmisi və digər təyinatlı gəmilərin istehsalı həyata keçirilir. Artıq Bakı Gəmiqayırma Zavodunda onlarla gəmi tikilərək istifadəyə verilmiş, 60-dan çox gəmi təmiri işləri həyata keçirilmişdir. Hazırda müəssisə tərəfindən BP şirkətinin sifarişi ilə dəyəri 378 milyon ABŞ dolları olan "Xankəndi" sualtı tikinti gəmisinin və 2 ədəd "Ro-pax" tipli gəmi bərənin inşası işləri davam etdirilir.

Mingəçevir Sənaye Parkında yüngül sənaye məhsulları, o cümlədən ayaqqabı, tibbi kosmetika, iplik, boyama, toxuma, tikiş və corab istehsalı üzrə 9 fabrikin yaradılması və 5 mindən çox yeni iş yerinin açılması nəzərdə tutulur. Artıq sənaye parkının rezidenti "Mingəçevir Tekstil" MMC 2 növdə ipliklərin istehsalı fabrikinin tikintisinə başlamışdır. Dəyəri 46 milyon ABŞ dolları olan layihə çərçivəsində 550 yeni iş yerinin yaradılması və fabrikin 2017-ci ilin sonlarında istismara verilməsi nəzərdə tutulur.

### Əczaçılıq zavodu gələn ildən istehsala başlayacaq

Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi sahəsində həyata keçirilən mühüm tədbirlərdən biri də ölkəmiz üçün yeni sənaye sahəsi olan əczaçılıq məhsulları istehsalının yaradılmasıdır. Bu məqsədlə Pirallahı Sənaye Parkında artıq 2 dərman zavodunun təməli qoyulmuşdur. Dəyəri 4 milyon ABŞ dolları olan və birdəfəlik şprislərin istehsalını nəzərdə tutan "Diamed Co" zavodunun tikintisinə isə yaxın zamanlarda başlanılacaq və müəssisə 2018-ci ilin 1-ci yarısında istismara veriləcək. Ümumilikdə bu müəssisələrdə 350-yə yaxın yeni iş yerinin açılması nəzərdə tutulur.

Bunlarla yanaşı, hazırda Türkiyənin, BƏƏ-nin, Yaponiyanın və Cənubi Koreyanın aparıcı şirkətləri ilə əczaçılıq məhsullarının birgə istehsalının təşkilinə dair danışıqlar aparılır.

Regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və yerli ehtiyatlardan səmərəli istifadə etməklə sənaye sahələrinin inkişafına nail olmaq baxımından sənaye zonalarının yaradılması böyük əhəmiyyət kəsb edir. Belə ki, Neftçala Sənaye Zonasında 3 müəssisə artıq fəaliyyətə başlayıb, daha 6 müəssisənin isə bu il fəaliyyətə başlaması nəzərdə tutulur. Masallı Sənaye Zonasına sahibkarlar tərəfindən böyük maraq göstərilir və artıq onlar tərəfindən dəyəri 33 milyon manatdan çox olan 33 layihə təqdim olunmuşdur. Sənaye zonasının layihələndirmə işləri tamamlanmışdır və bu yaxınlarda infrastrukturunun yaradılması işlərinə başlanılacaq. Hazırda Ağdam, Ağstafa, Qazax və digər rayonlarda da sənaye zonalarının yaradılması imkanları araşdırılır.

Ənənəvi sənaye sahələrindən olan xalçaçılığın inkişafı məqsədi ilə "Azərxalça" ASC tərəfindən 10 rayonda xalça müəssisələrinin tikintisinə başlanmışdır və artıq Füzuli rayonunun Horadiz qəsəbəsində xalça müəssisəsi fəaliyyət göstərir. Şəmkir rayonunda isə bu cür müəssisə artıq fəaliyyətə başlamağa hazırdır. 8 müəssisənin tikintisi isə bu il başa çatdırılacaqdır. Bu müəssisələr işə başladıqdan sonra ümumilikdə 1600 yeni iş yerinin açılması təmin ediləcəkdir.

Xalça istehsalı üçün etibarlı xammal bazasının yaradılması, habelə ixrac potensialının artırılması məqsədilə yunun tədarükü sistemi yaradılır. Artıq 4 rayonda yun tədarükü məntəqəsinin təşkili istiqamətində iş aparılır. Bundan başqa, "Azərxalça" ASC tərəfindən əyirici-boyaq müəssisəsinin tikintisi davam etdirilir.

### Dövlət dəstəyi ilə yaradılan fermer təsərrüfatlarında arpa və buğda üzrə məhsuldarlıq 60 sentnerdir

Prezident İlham Əliyev tərəfindən böyük ixrac potensialına və ölkəyə valyuta gətirmək imkanına malik olan ənənəvi sahələrin inkişaf etdirilməsi, pambıq sahələrinin genişləndirilməsi, heyvandarlıq, baramaçılıq, üzümçülük, tütünçülük, zeytunçuluq, fındıqçılıq, çayçılıq və digər sahələrin inkişafı məqsədilə qarşıya mühüm vəzifələr qoyulmuşdur. Bu tapşırıqların icrası üçün sahibkarlara güzəştli kreditlərdən və aqrolizinq xidmətlərindən daha geniş istifadə imkanları yaradılır, əkin sahələri genişləndirilir, mütəmadi olaraq istehsalçılarla görüşlər təşkil edilir, qarşıya çıxan məsələlər operativ həllini tapır. Bununla yanaşı, dövlət başçısının tapşırığına əsasən, suvarma işlərinin maksimum dərəcədə yüksək səviyyədə aparılması üçün layihələr həyata keçirilir. Bu məqsədlə Dövlət İnvestisiya Proqramına uyğun olaraq müvafiq vəsaitlər ayrılmışdır.

Ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində xüsusi əhəmiyyətə malik iri fermer təsərrüfatlarının, aqroparkların, intensiv metodlara əsaslanan müasir təsərrüfatların yaradılması davam etdirilir. Əhalinin ərzaq təminatını yerli istehsal hesabına daha da yaxşılaşdırmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, 20 rayon ərazisində 44 min hektar sahədə 32 iri fermer təsərrüfatı yaradılmışdır. Dəyəri 193 milyon manat olan bu iri fermer təsərrüfatlarının yaradılmasına 70,5 milyon manat güzəştli kredit verilmişdir. Bu təsərrüfatlarda məhsuldarlıq arpa və buğda üzrə hər hektardan 60, qarğıdalıda 120, soyada isə 35 sentnerədək təşkil edir.

### 38 aqroparkın, 14 heyvandarlıq kompleksinin, 24 iri taxılçılıq təsərrüfatının yaradılması təşviq olunur

Hazırda qabaqcıl texnologiyalara əsaslanan istehsal və emal sahələrinin qurulması, infrastrukturun təkmilləşdirilməsi, eyni zamanda yeni aqroparkların yaradılması istiqamətində işlər davam etdirilir. Xaçmaz rayonunda Yalama Aqroparkında 1-ci mərhələ üzrə işlər başa çatdırılmış və Şəmkir Aqroparkında isə 1-ci mərhələ üzrə işlər davam etdirilir.

Bundan əlavə, Samux, Goranboy, Ağcabədi, Şabran, Salyan, Şamaxı, Füzuli, Cəlilabad və İsmayıllı rayonlarında da aqroparklar yaradılır. İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ümumi dəyəri 207 milyon manat olan bu aqroparkların yaradılmasına 76,1 milyon manat güzəştli kredit verilmişdir. Hazırda 157,6 min hektar ərazidə 38 aqroparkın, o cümlədən 12 rayonda 37,3 min hektar ərazidə 14 müasir cins heyvandarlıq kompleksinin (yem bazası ilə birlikdə) və 17 rayonda 120,3 min hektar ərazidə 24 iri taxılçılıq təsərrüfatının yaradılması təşviq olunur. Bu tədbirlər regionlarda ixracyönümlü və rəqabətədavamlı məhsul istehsalının artmasına, sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə səbəb olacaqdır.

Kollegiya iclasında həmçinin, 2017-ci ilin birinci yarımilində biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığın inkişafı, özəl sektora dövlət dəstəyinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verilmişdir. Diqqətə çatdırılmışdır ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanunun tətbiqindən sonrakı 20 ay ərzində vergi yoxlamaları istisna olmaqla sahibkarlıq subyektlərində cəmi 96 yoxlama, o cümlədən 2017-ci ilin 6 ayı ərzində 26 yoxlama keçirilmişdir.

### 6 ay ərzində 690 sahibkara 63,3 milyon manat güzəştli kredit verilib

Özəl sektora uzunmüddətli və əlverişli şərtlərlə maliyyə dəstəyinin göstərilməsi məqsədilə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 2017-ci ilin birinci yarımili ərzində 690 sahibkara 63,3 milyon manat güzəştli kredit verilmişdir və bu investisiya layihələrinin reallaşdırılması 2300-dən çox yeni iş yerinin yaradılmasına imkan verir. Bu dövrdə verilmiş güzəştli kreditlərin 65 faizi respublikanın regionlarının, 35 faizi isə Bakı qəsəbələrinin payına düşür. İndiyədək isə 33,5 mindən çox sahibkarın ümumi investisiya dəyəri 4 milyard manatdan çox olan investisiya layihələrinin maliyyələşdirilməsinə 2 milyard manatdan çox güzəştli kredit verilmişdir. 2017-ci ildə yalnız geri qaytarılan vəsaitlər hesabına 150 milyon manatadək güzəştli kreditin verilməsi nəzərdə tutulur.

Azərbaycanda investisiya təşviqi mexanizminin uğurla həyata keçirilməsi nəticəsində indiyədək verilmiş 173 investisiya təşviqi sənədi üzrə 1,6 milyard manatlıq investisiya qoyuluşu nəzərdə tutulur. Bu layihələrin reallaşdırılması nəticəsində 11 mindən çox yeni iş yeri açılacaqdır. Ümumilikdə təqdim edilmiş sənədlərin 37 faizi kənd təsərrüfatını, 63 faizi isə sənaye sahələrini əhatə edir. İnvestisiya təşviqi sənədi almış 83 müəssisə artıq fəaliyyət göstərir, digərləri isə 2018-ci ilin sonuna qədər fəaliyyətə başlayacaq.

### "Made in Azerbaijan" brendinin 8 ixrac missiyası həyata keçirilib

İclasda vurğulanmışdır ki, dövlət başçısının müəyyənləşdirdiyi mühüm vəzifələrdən biri də qeyri-neft məhsullarının ixracının stimullaşdırılması, ixrac məhsullarının çeşidinin və həcminin artırılması, eləcə də ixrac coğrafiyasının genişləndirilməsidir.

İndiyədək bu sahədə görülən işlər barədə məlumat verilərək bildirilmişdir ki, "Made in Azerbaijan" brendinin təşviqi ilə bağlı Honq Konq da daxil olmaqla Çinə, Birləşmiş Ərəb Əmirliklərinə, Almaniyaya, Əfqanıstana, Pakistana, Qətərə, Qazaxıstana 8 ixrac missiyası həyata keçirilmişdir. İxrac missiyalarının nəticəsi olaraq çay və narın Almaniyaya, nar şirəsinin İsveçə ixracı, Qətərdə park mebelinin təşviqi, distribyusiyası və satışına dair müqavilə imzalanmış, Əfqanıstana quru süd, mebel və süd məhsullarının, nar şirəsi, qənnadı məhsulları, fitinq və polietilen borular, metal konstruksiyaları və digər tikinti materiallarının, Qətərə ət, nar şirəsi və Naftalan neftindən kosmetoloji və tibbi məhsulların ixracı, Qazaxıstana kosmetoloji və tibbi məhsullar və meyvənin ixracına dair ilkin razılaşmalar əldə edilmiş, Pakistana mebel, pambıq çiyidi, nar, şokolad məhsulları, konservləşdirilmiş pomidor, göbələk üzrə sifarişlər qəbul olunmuşdur. Bununla yanaşı, Pakistanda tikiləcək 71 km qaz boru kəmərinin layihəsi üçün tenderdə (boruların təchizatı) Azərbaycan və Pakistan şirkətlərinin birgə iştirakı barədə ilkin razılaşmalar əldə edilmişdir.

Qeyd edək ki, indiyədək təşkil edilmiş ixrac missiyalarının nəticəsi olaraq Çinə şərab, Birləşmiş Ərəb Əmirliklərinə, Səudiyyə Ərəbistanına, Oman və Malayziyaya alma və nar şirəsi, Qazaxıstana sənaye boyası ixrac olunmuşdur. Hazırda Astanada Azərbaycan şərab ticarət evinin yaradılması barədə Qazaxıstandakı azərbaycanlı iş adamları ilə danışıqlar aparılır.

### Dubaya ət, İspaniyaya fındıq, Küveytə nar şirəsi, Litvaya şərab...

Azərbaycan şirkətlərinin vahid ölkə stendi ilə iştirakı məqsədilə görülmüş işlərin nəticəsi olaraq, Dubayda keçirilən "Gulfood" beynəlxalq ərzaq sərgisində "Made in Azerbaijan" vahid ölkə stendində 24 şirkətin məhsulları sərgilənmiş, Dubaya diri qoyun və ət ixracına dair 2 müqavilə imzalanmış, İspaniyaya fındıq ixracı üzrə sifariş qəbul edilmişdir.

Eyni zamanda Birləşmiş Ərəb Əmirliklərində fəaliyyət göstərən iri marketlər şəbəkəsində Azərbaycan məhsullarının satışı ilə bağlı razılaşmalar, eləcə də Küveytə meyvə-tərəvəz və nar şirəsinin, Misir, Əfqanıstan və Səudiyyə Ərəbistanına fındıq, Dubaya çay, bal və quru süd, Səudiyyə Ərəbistanına ət ixracına dair ilkin razılaşmalar əldə olunmuşdur. Bu ilin martında Almaniyanın Düsseldorf şəhərində keçirilən "Prowein" beynəlxalq şərab sərgisində "Made in Azerbaijan" vahid ölkə stendi ilə 9 şirkətin iştirakı təmin olunmuş, Azərbaycan şərablarının Litvaya və növbəti mərhələlərdə digər Baltikyanı ölkələrə ixracı barədə razılıq əldə edilmişdir.

Bazar araşdırmaları ilə bağlı müraciətlərin qəbulu davam edir və onların qiymətləndirilməsi ilə bağlı müsabiqə komissiyasının avqust ayının sonunda keçirilməsi nəzərdə tutulur.

### Xaricdə ticarət evlərinin sayı artırılacaq

Sahibkarlara ixrac etdikləri qeyri-neft məhsullarının gömrük dəyərinin 3 faizdən 6 faizdək hissəsi büdcə vəsaitləri hesabına təşviq olunur. Bu çərçivədə ixrac təşviqinin ödənilməsi davam etdirilmiş, qeyri-neft məhsulları ixracatçılarına 2016-cı ildə 2,3 milyon dollar həcmində ixrac qarşılığında 200,4 min manat, 2017-ci ilin ilk 6 ayında isə 13,9 milyon dollar həcmində ixraca uyğun olaraq, 1,312 milyon manat olmaqla ümumilikdə indiyədək 1,5 milyon manat ödənmişdir.

İxrac təşviqindən istifadə edən ixracatçılar məhsullarını əsasən Rusiya, ABŞ, Çin, Belarus, Gürcüstan, Ukrayna, Latviya, Almaniya, Türkiyə, Polşa, Qazaxıstan, İraq, Yunanıstan, Malayziya, Kanada, Moldova, Rumıniya və Fransa bazarlarına ixrac etmişlər. 2017-ci ildə ödənilən ixrac təşviqinin 70,2 faizi üzüm şərabları və digər spirtli içkilər, 14,6 faizi konserv məhsulları, şirələr, mürəbbələr və s. təşkil edir. Bununla yanaşı, sahibkarlardan daxil olmuş müraciətlər və aparılmış təhlillər nəzərə alınmaqla təşviqin ödənilməsi mexanizminin təkmilləşdirilməsi, bir sıra məhsulların ixrac təşviqi ödənilən məhsulların siyahısına daxil edilməsi istiqamətində işlər aparılır.

Bunlarla yanaşı, ixrac bazarlarında ölkəmizin və yerli ixracatçıların iqtisadi-ticarət maraqlarının daha dolğun qorunması və təmsil edilməsi üçün Rusiya Federasiyası, Çin Xalq Respublikası, Birləşmiş Ərəb Əmirliklərində ticarət nümayəndələri təyin edilmişdir. Azərbaycanın ixracyönümlü məhsullarının xarici bazarlarda təşviqi məqsədilə Belarusda Azərbaycan Ticarət Evi açılmış, Ukraynada bu istiqamətdə işlər davam etdirilir.

### "Made in Azerbaijan"ın təbliği daha genişmiqyaslı olacaq

Nazirliyin kollegiya iclasında Azərbaycan məhsullarının təbliği üçün xarici KİV-də reklamların yerləşdirilməsi istiqamətində görülən işlər barədə məlumat verilmişdir. Qeyd edilmişdir ki, Azərbaycan şirələri barədə videoçarxın hazırlanması ilə bağlı işlər başa çatmaq üzrədir. Bundan başqa, "Azərbaycan meyvə və tərəvəzləri" ilə bağlı videoçarxın hazırlanmasına başlanmışdır. Videoçarxın sentyabr və oktyabr aylarında Rusiyanın bir sıra aparıcı federal televiziya kanallarında yerləşdirilməsi nəzərdə tutulur.

Xarici ölkələrdə fəaliyyət göstərən mağazalarda və "Duty Free" mağazalarında "Made in Azerbaijan" brendinin təşviqi istiqamətində tədbirlər davam etdirilir. Bu çərçivədə Rusiyanın ən böyük pərakəndə satış şəbəkəsi ilə danışıqlara başlanmışdır. Bununla yanaşı, Moskva, Kiyev, Minsk, İstanbul, Frankfurt və digər şəhərlərin hava limanlarındakı "Duty Free" mağazalarında məhsulların yerləşdirilməsi ilə bağlı müzakirələr aparılır.

SOCAR-ın xarici ölkələrdəki yanacaqdoldurma məntəqələrində Azərbaycan mənşəli məhsulların satışının təşkil edilməsi məqsədilə "Made in Azerbaijan" rəflərinin yerləşdirilməsi ilə bağlı işlər görülür.

"Made in Azerbaijan" brendinin AZAL şirkəti vasitəsilə təşviq edilməsi ilə bağlı işlər davam etdirilir.

İxraca dəstəklə bağlı digər tədbirlər olaraq, 2017-ci ilin 1-ci yarımilliyi ərzində AZPROMO tərəfindən 110 ixrac və investisiya yönümlü tədbir keçirilmiş, İxracatçılar Klubunun və onun komitələrinin 10-dək iclası təşkil olunmuş, 125-dən çox şirkətə ixrac xidmətləri göstərilmiş, 15 şirkət üçün "Go Export" seminarı təşkil edilmiş, "Export.az" ixrac portalı istifadəyə verilmişdir. Ölkədə arıçılar, şərab, nar, meyvə-tərəvəz, fındıq və tekstil ixracatçıları və istehsalçıları, qablaşdırma sənayesi, mebel istehsalçıları assosiasiyaları fəaliyyətə başlamışdır. İclasda assosiasiyalarla əlaqələrin daha da gücləndirilməsi, həmçinin tütünçülük üzrə assosiasiyanın yaradılmasına lazımi dəstək göstərilməsi barədə nazirliyin aidiyyəti qurumlarına tapşırıq verilmişdir.

### Azərbaycan ərazisindən avtomobillə yük daşınması 1,5 dəfə artıb

Kollegiya iclasında vurğulanmışdır ki, Azərbaycanın tranzit potensialının reallaşdırılması Prezident İlham Əliyevin iqtisadi diversifikasiya siyasətində mühüm yer tutur. Bununla əlaqədar ölkəmizin tranzit imkanlarının genişləndirilməsi istiqamətində önəmli işlər görülmüşdür. Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası tərəfindən görülmüş işlər, iri tonnajlı yük avtomobillərinin keçid prosedurlarının sadələşdirilməsi, gediş-gəliş xərclərinin təqribən 40 faizədək aşağı salınması nəticəsində 2017-ci ilin yanvar-iyun aylarında ölkəmizin ərazisindən 16 minə yaxın yük avtomobili keçmişdir ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 1,5 dəfə çoxdur.

Ümumiyyətlə, 2017-ci ilin yanvar-iyun aylarında ölkə ərazisindən ümumilikdə 5,5 milyon ton yük daşınmışdır. Yüklərin 4,4 milyonu (80 faiz) neft və neft məhsullarının, 1,1 milyonu isə (20 faiz) qeyri-neft məhsullarının payına düşür. Ötən ilin analoji dövrü ilə müqayisədə neft və neft məhsullarının daşınmasında 23 faiz, qeyri-neft məhsullarında isə 36 faiz artım müşahidə olunur.

Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı işlər davam etdirilir.

Kollegiyanın sədri Şahin Mustafayev Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarımili ərzində sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısının çıxışından irəli gələn və İqtisadiyyat Nazirliyi qarşısında qoyulmuş vəzifələrin vaxtında və keyfiyyətli icrası üçün nazirliyin struktur bölmələrinə konkret tapşırıqlar vermiş, bu vəzifələrin icrası ilə bağlı Tədbirlər Planının hazırlanması qərara alınmışdır. Kollegiyanın iclasında Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamı ilə təltif edilmiş İqtisadiyyat Nazirliyinin əməkdaşlarına medallar və onların vəsiqələri təqdim olunmuşdur.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***